**Eldəniz Məzahir oğlu Məhərrəmov**
**i.f.d., dos., Azərbaycan Kooperasiya Universiteti.**
**E-mail: emeherremov79@mail.ru**
**UOT: 332:338.012:631.1; R11; R12; R15; R58**

# Azərbaycanda iqtisadi rayonlaşdırma proseslərində aqrar sahənin inkişaf etdirilməsi prioritetlərini şərtləndirən amillər

***Xülasə***

*Tədqiqatın məqsədi - Azərbaycanda iqtisadi rayonlaşdırma proseslərində aqrar sahənin inkişaf etdirilməsi prioritetlərini şərtləndirən amillərin müəyyənləşdirilməsindən ibarətdir. Bunun üçün ilk növbədə, ölkədə iqtisadi rayonlaşdırma prosesləri araşdırılmış və regional səviyyədə inkişaf proseslərinin mahiyyəti, əhəmiyyəti verilmişdir. Azərbaycanda iqtisadi rayonların inkişaf xüsusiyyətləri və bununla bağlı dövlətin apardığı siyasətin əsas məqamları baxılmış və ümumiləşdirilmişdir. Ölkəmizdə iqtisadi rayonların bölgüsünün yenilənməsinə yaranmış zərurətin əsaslandırılması təmin olunmuşdur. Böyük Qarabağ Zəfərindən sonra ölkədə iqtisadi rayonların sayının artırılması və işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayonun, Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının yaradılmasının əhəmiyyəti açıqlanmışdır. İqtisadi rayonlarda aqrar sahənin inkişaf prioritetləri baxılmış və bununla bağlı materiallar verilmişdir, həm də təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası- əsas etibarilə təhlil, sintez, ümumiləşdirmə, müqayisə və s. bu kimi iqtisadi metodlardan istifadə olunmuşdur. Eyni zamanda iqtisadi rayonlaşdırma prosesləri və bu proseslərdə aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı məsələlər üzrə müxtəlif tədqiqatçıların fikir və yanaşmaları da diqqət mərkəzində saxlanılmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə verilmiş praktiki elmi nəticələr ölkəmizdə iqtisadi rayonların inkişaf proseslərinin daha optimal proqnozlaşdırılması, planlaşdırılması və bu proseslərdə aqrar sahənin inkişaf etdirilməsi prioritetlərini şərtləndirən amillərin öyrənilməsi və adekvat tədbirlərin görülməsi ilə bilavasitə bağlıdır. Tədqiqatın nəticələri – hazırkı şəraitdə və kifayət qədər mürəkkəb olan bir dövrdə ölkəmizdə iqtisadi rayonlaşdırma proseslərinin müasir vəziyyətinin obyektiv olaraq qiymətləndirilməsi və bu proseslərdə aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsindən ibadətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – bu istiqamətdə aparılan tədqiqatlar demək olar ki, əsasən yenidir və bunlar nəzərə alınmaqla, qeyd etmək olar ki, tədqiqatın orijinallığında elə ciddi bir problem yoxdur. Digər tərəfdən, əsas elmi yenilik müasir dövrdə Azərbaycanda iqtisadi rayonlaşdırma proseslərində aqrar sahənin inkişaf etdirilməsi prioritetlərini şərtləndirən amillərin sistemləşdirilməsi və adekvat olaraq qiymətləndirilməsidir. Ölkəmizdə iqtisadi rayonların inkişaf xüsusiyyətləri, təbii və iqtisadi resursları nəzərə almaqla, aqrar sahənin inkişaf etdirilməsi prioritetlərinə yanaşmalar əsaslandırılmış və bununla bağlı tədbirlərin görülməsinin vacibliyi verilmişdir. Yaxın, orta və uzaq perspektivdə Azərbaycanda iqtisadi rayonlarda, o cümlədən yeni yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf etdirilməsi prioritetləri baxılmış və bununla bağlı təkliflər və tövsiyələr hazırlanmışdır.*

***Açar sözlər:*** *iqtisadi rayonlar, aqrar sahə, iqtisadi rayonların inkişaf prosesləri, iqtisadi rayonların inkişaf problemləri, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin inkişaf perspektivləri.*

## Giriş

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra müxtəlif sahələrdə müstəqil dövlət atributlarının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində zəruri addımlar atmışdır. Lakin 1990-cı illərin əvvəllərində bu sahədə əsaslı irəliləyiş əldə etmək mümkün olmamışdır. Belə ki,

ölkəmiz öz müstəqilliyinin bərpasından az keçməmiş müxtəlif sahələrdə dövlət atributlarının formalaşdırılması və inkişafı istiqamətində zəruri addımlar atmışdır. Bununla belə, 1990-cı illərin əvvəllərində bu sahədə əsaslı irəliləyişi təmin etmək mümkün olmamışdır. Həmin dövrdə ölkədə olan siyasi qüvvələrin və hakimiyyəti zəbt edənlərin səbatsızlığı ucbatından, eyni zamanda, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 % torpaqlarının işğal olunması səbəbindən və ölkədə savadsız idarəçilik, bu kimi hallar islahatların genişləndirilməsinə imkan verməmişdir. Yalnız 1993-cü ilin ortalarından başlayaraq, ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə sosial-iqtisadi sabitliyin təmin edilməsi, o cümlədən regionların iqtisadi inkişafının planlaşdırılması və həyata keçirilməsi, çox mühüm iqtisadiyyat sahələrində, ilk növbədə, aqrar sahədə islahatların aparılması istiqamətində zəruri addımlar atılmışdır. Həmin dövrdə dövlətin maliyyə resursları yetərincə deyildi, büdcə boş idi, hələ dövlət atributları güclənməmişdi, müstəqil dövlət strukturları yeni-yeni yaradılmaqda idi. Lakin neft strategiyasının reallaşdırılmasına başlanıldıqdan sonra Azərbaycanda iqtisadi rayonlarının inkişaf etdirilməsi və iqtisadi rayonlaşdırma prinsiplərinin formalaşdırılması üçün tədbirlər həyata keçirildi. O dövrə qədər Azərbaycanda regionların inkişafına kompleks yanaşmalar tətbiq etmək üçün resurslar yox idi, regionların əksəriyyəti uzun dövr ərzində, hətta bu günə qədər mərkəzdən maliyyələşdirilirdi. Rayonlarda və ümumən regionlarda yığılan büdcə vəsaitləri həmin rayonların özlərinin fəaliyyətinin maliyyələşdirilməsinə bəs etmirdi. Ona görə də, mərkəzdən dotasiyalar verilməsi mexanizmi vardır. Bütün bunlara baxmayaraq, 1990-cı illərin ortalarından başlayaraq aqrar sahədə genişmiqyaslı islahatlar keçirilmişdir. İnsanlar torpaq payları almışdır, kiçik və orta biznesin inkişafı üçün zəruri şərait yaradılmışdır. Bu ona görə vacib idi ki, məşğulluq problemlərinin və insanların gəlirlərinin formalaşdırılması üçün təcili tədbirlərə ehtiyac var idi.

**Azərbaycanda iqtisadi rayonların inkişafında aqrar sahənin rolunun təhlili**

Qeyd edək ki, aqrar islahatların aparılması, bu sahədə qanunvericilik bazasının formalaşdırılması həmin dövrdə MDB ölkələri arasında Azərbaycanda ən uğurlu modellərdən hesab olunmuşdur və bu günə kimi aparılan aqrar islahatların müsbət nəticələrini qeyd etmək mümkündür. Məhz həmin dövrdə ölkəmizdə ölkə regionlarında yaşayan insanların məşğulluğunun təmin olunması və kiçik təsərrüfatların yaradılması üçün torpaq sahələrinin, pay torpaqlarının verilməsi və bütün bunların hesabına regionlarda məşğulluğun gücləndirilməsi, tədricən də olsa, infrastrukturun yaradılması proseslərinə olan müsbət təsiri ilə diqqət çəkmişdir. Lakin planlı şəkildə regionların sosial-iqtisadi inkişaf etdirilməsi, iqtisadi rayonların resurslarının təsərrüfat dövriyyəsinə cəlb olunması əsasən 2000-ci illərin əvvəllərindən başlanmışdır. Belə ki, regionların sosial-iqtisadi inkişafı üzrə məqsədli dövlət proqramlarının reallaşdırılmasına 2004-cü ildən başlanılmışdır və hazırda 4-cü proqram çərçivəsində icra prosesləri gedir. 2004-2008-ci illərdə 1-ci dövlət proqramı [1], 2009-2013-cü illərdə 2-ci dövlət proqramı [2], 2014-2018-ci illərdə isə 3-cü dövlət proqramları həyata keçirilmişdir [3]. Hazırda 2019-2023-cü illəri əhatə edən 4-cü dövlət proqramı icra olmaqdadır [4]. Bu cür davamlı şəkildə tədbirlərin həyata keçirilməsi ölkə regionlarının sosial-iqtisadi inkişafına ciddi təkan vermişdir. Regional səviyyədə aparılan və iqtisadi rayonların iqtisadiyyat strukturunun formalaşdırılmasına, bu rayonlarda olan təbii və iqtisadi resurslardan istifadə etməyə imkan verən amillər və onların araşdırılması çox mühüm əhəmiyyət kəsb edir. Məhz əvvəldə qeyd etdiyimiz kimi, 2004-cü ildən başlayaraq 1-ci dövlət regional inkişaf proqramı çərçivəsində regionlarda infrastrukturun yaradılmasına başlanıldı, körpülər tikildi, yollar salındı, su sistemləri bərpa olundu, regionlarda olan resurslardan istifadə edilməsi üçün müəssisələrin yaradılmasına başlanıldı, təsərrüfatçılığın inkişafına, kənd təsərrüfatı və aqrar sahənin inkişaf etdirilməsi məsələlərinə dövlət tərəfindən diqqət artırıldı. 2004-2008-ci illərdə başlıca məqsəd infrastruktur şəbəkəsinin formalaşdırılması idi. Bunlarsız iqtisadi rayonların inkişaf etdirilməsi

qeyri-mümkün idi və həmin dövrdə iqtisadi rayonların formalaşması prinsiplərində də bu rayonların resursları, müxtəlif dövrlərdə formalaşmış məşğulluq sahələri nəzərə alınırdı. Ümumiyyətlə, Azərbaycanda iqtisadi rayonlaşma həyata keçirilərkən, ilk növbədə, birinci variantda 12 iqtisadi rayon fəaliyyət göstərirdi. Abşeron iqtisadi rayonundan başqa, bu iqtisadi rayonların əksəriyyətində kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün çox güclü resurslar mövcud olmuşdur və həmin iqtisadi rayonların, xüsusilə, Aran iqtisadi rayonunun imkanlarından taxılçılığın və aqrar sahənin inkişaf etdirilməsi üçün məhz regional şəkildə dövlət proqramlarından məqsədi şəkildə istifadə edilmişdir. Həm elektrik enerjisi ilə təchizat, suvarma sistemlərinin, subartizan quyularının və regionlarda lazımi zəruri infrastruktur obyektlərinin istismara verilməsi, emal müəssisələrinin yaradılması nəticəsində aqrar sahənin inkişaf etdirilməsi üçün müəyyən şərait formalaşdırılmışdır. Lakin burada müəyyən çətinliklər özünü göstərmişdir, belə ki, əvvəlki iqtisadi rayonların inkişaf xüsusiyyətlərindən baxsaq, məsələn, Aran zonasında rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması prosesləri kifayət qədər gecikmişdir. Bu regionda geniş və məhsuldar sahələrdə pambıq, həmçinin bostan bitkilərinin yetişdirilməsi, şəkər çuğunduru məhsulunun geniş istehsal olunması imkanlarına, xüsusilə, mühüm ərzaq məhsulu olan ərzaqlıq buğdanın istehsalı üçün güclü potensialın olmasına baxmayaraq, vaxtında emal kompleksi müəssisələrinin yaradılmaması, emal sənayesinin inkişaf etdirilməməsi, bunların sonunda isə aqrar sahənin potensialının reallaşdırılmaması həmin iqtisadi rayonların sosial-iqtisadi inkişafına mənfi təsir göstərmişdir.

Müasir dövrdə, yəni son illərdə Azərbaycanda iqtisadi rayonların inkişaf etdirilməsi və prioritet istiqamətlərin müəyyənləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Artıq regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan 3-cü dövlət proqramı çərçivəsində 2014-2018-ci illəri əhatə edən regional inkişaf proqramı səviyyəsində ölkənin iqtisadi rayonlarında əsas etibarı ilə rəqabətqabilliyyətli istehsal infrastrukturunun, o cümlədən sənaye infrastruktunun, ilk növbədə aqrar sənaye komplekslərinin yaradılmasına başlanılmışdır. Məhz bunların nəticəsində ölkənin 41 rayonunda 51 aqroparkın və aqrar-sənaye parklarının yaradılması prosesləri həyata keçirilmişdir və onların əksəriyyəti artıq fəalliyyət göstərir. Xüsusilə, ölkənin Qərb zonasında məsələn, Şəmkirdə kifayət qədər böyük ticarət-logistika, nəqliyyat-logistika infrastrukturu yaradılmışdır. Məlumdur ki, Qərb bölgəsində, Şəmkir və ona yaxın digər rayonlarda çox yüksək keyfiyyətli aqrar məhsullar istehsal olunur və onlar əsasən Rusiya bazarına çıxarılır. Bu regionun fermer təsərrüfatları, kənd təsərrüfatı və aqrar sənaye kompleksi müəssisələri digər ölkələrin bazarlarında da möhkəmlənmək imkanına malikdir. Bu baxımdan, həmin regionda güclü nəqliyyat-logistika infrastrukturunun yaradılması digər rayonlarda da aqroparkların, aqrosənaye komplekslərinin, soyducu komplekslərin yaradılması iqtisadi rayonların mövcud resuslarından səmərəli istifadəyə əlavə təkan vermişdir.

Tarixi bir hadisəyə və ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən mühüm bir məqama diqqət yönəltmək istərdik. Belə ki, 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Böyük Qarabağ Zəfəri iqtisadi rayonların fəalliyyəti ilə bağlı yeni reallıqlar yaratmışdır. Əlbəttə uzun müddət ərzində, 30-ilə yaxın Azərbaycan özünün bir neçə iqtisadi rayonunun, yəni işğal altında qalan ərazilərdəki iqtisadi rayonlarının resuslarından istifadə edə bilməmişdi. Nəinki bu resuslardan istifadə edə bilməmiş, həm də 1 milyona yaxın məcburi köçkünün müvəqqəti şəraitini qurmağa, şəhərciklər yaratmağa, yaşayış kompleksləri, yaşayış massivləri salmağa və eyni zamanda, onların sosial müdafiəsini təmin etməyə məcbur olmuşdur [5]. Digər tərəfdən, məhz Böyük Qarabağ Zəfərindən sonra iqtisadi rayonlaşmanın yeni bölgüsünə, nəhayət, obyektiv reallıqlar və müasir dövrün potensialı nəzərə alınmaqla, yeni iqtisadi rayonların yaradılması zərurəti ortaya çıxmışdır. Bütün bunları dərindən dərk edən və işğaldan azad olunmuş ərazilərin bərpasına, ilk növbədə, aqrar sahənin bərpasına konseptual baxışları formalaşdıran ölkə Prezidentinin 7 iyul 2021-ci il fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərman imzalamışdır [6]. Bu

fərmanın əsasında iqtisadi rayonların iqtisadi inkişaf proseslərinin yeni mərhələyə çıxdığını qeyd etmək olar. Əlamətdar hadisə ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayon – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Qarabağ iqtisadi rayonunun yaradılması zamanı tarixi aspektlər, Qarabağın formalaşması, inkişaf etməsi, məşğuliyyət sahələri, təbii resusları, yeraltı və yerüstü resursları, mineral su ehtiyatları və digər vacib məqamlar ciddi şəkildə nəzərə alınmışdır. Qarabağ iqtisadi rayonunun potensialından və xüsusilə, aqrar sahənin resurslarından daha səmərəli istifadə edilməsi ilə bağlı bir qrup məqamları xüsusilə qeyd etmək istərdik: Qarabağ iqtisadi rayonunda həm heyvandarlığın, həm də əkinçiliyin inkişaf etdirilməsi üçün kifayət qədər resurslar vardır; Qarabağ iqtisadi rayonunda müasir qlobal ərzaq təhlükəsizliyi konteksində Azərbaycan özünün mühüm ərzaq məhsulu olan ərzaq buğdasına olan təlabatının ödənilməsində ciddi nailiyyətlər əldə edə bilər, artıq bu istiqamətdə işlər başlamışdır; Bu iqtisadi rayonda paxlalı, dənli bitkilərin əksəriyyətinin yetişdirilməsi və çox yüksək məhsuldarlığa malik sortların becərilməsi, eyni zamanda, onların bazasında aqrar sahənin emal kompleksinin yaradılması imkanları xüsusi diqqət çəkir. Bundan əlavə, Ağdam və Füzuli rayonlarında üzümçülüyün inkişafı üçün çox ciddi resurslar vardır, hələ 1970-ci illərin ortalarında Azərbaycanda üzümçülük inkişaf etdirilərkən bu iki rayon çox iri üzümçülük rayonları idi, eyni zamanda bu rayonlarda pambıqçılıq da inkişaf etmişdi.

Həmin rayonlarda onlarla şərab zavodları, həm də pambıqçılıq zavodları fəalliyyət göstərirdi. Bu amillər baxımından regionda “ağıllı” texnologiyaların tətbiqinə üstünlük verilməsi yaxın perspektivdə regionun sosial-iqtisadi inkişafına və aqrar sahənin səmərəliliyinin artırılmasına əlavə imkanlar yaradacaqdır [7]. Digər tərəfdən, üzümçülük məhsullarının əhəmiyyətli hissəsinin ixracı mümkündür və bunun üçün həm əvvəlcədən məlum ənənəvi bazarlar, həm də yeni bazarların işlənməsi və möhkəmlənməsi üçün imkanlar vardır. Eyni hal aqrar sahənin çox mühüm texniki bitkisi olan pambıqla da bağlıdır. Pambıqçılığın inkişafı həm də multiplikativ bir element kimi iştirak edə bilər. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və onların emalı ilə bağlı olan problemlərə kompleks yanaşmanın təmin edilməsidir. Bu proseslərdə, ilk növbədə işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri nəzərə alınmalıdır [8]. Bunlarla bərabər, kənd təsərrüfatı, xüsusilə, dənli bitkilərin yetişdirilməsi, onların əsasında çörək və bulka məmulatları, konditer məhsullarının istehsalı üçün xammalın – yarımfabrikatların istehsal olunması vacib şərtlərdəndir [9].

**Yaxın perspektivdə ölkənin iqtisadi rayonlarında aqrar sahənin inkişafının sürətləndirilməsi istiqamətləri**

İqtisadi rayonların potensialından istifadə edilməsində və ölkənin regional istehsal infrastrukturunun formalaşdırılmasında aqrar sahənin imkanlarının dərindən təhlil olunması və obyektiv olaraq qiymətləndirilməsi vacib şərtlərdəndir. İqtisadi və inzibati rayonlar arasında olan qarşılıqlı əlaqənin səmərəli təşkili məsələləri də bu baxımdan xüsusi olaraq nəzərə alınmalıdır. AMEA-nın müxbir üzvü, prof. Ə.X.Nuriyev yazır ki, hər bir ölkənin özünəməxsus regionlara bölgü prinsipləri və sistemləri vardır. Bu sistem və onun daxili tərkib hissələri – iqtisadi rayonlar, milli dövlət regionları, inzibati-ərazi vahidləri sabit deyil, dəyişkəndir. İqtisadi rayonlarda mövcud olan nailiyyətlərin və çatışmazlıqların tarixi səbəblərini aydın görmək, müasir problemlərini düzgün başa düşmək və onun həlli yollarını tapmaq imkanı axtarılmalıdır [10, s. 67]. Biz də hesab edirik ki, iqtisadi rayonlar şəbəkəsinin formalaşdırılması və sistemli şəkildə tədbirlərin görülməsi, onların ixtisaslaşması, kompleks şəkildə inkişaf etdirilməsi məsələləri vacib şərtlərdəndir. Eyni zamanda bu iqtisadi rayonlarda daha çox inkişaf perspektivinə malik iqtisadiyyat sahələrinin imkanları dərindən araşdırılmalı və zəruri tədbirlər görülməlidir. Bu baxımdan, aqrar sahənin rolu və funksiyası, kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, innovasiyaların tətbiq olunması, kooperasiya və

inteqrasiya əlaqələrinin yetərincə dəyərləndirilməsi və aqrar sahənin inkişafında elmi-texniki tərəqqinin rolunun artırılması, sahənin inkişafı ilə yanaşı iqtisadi rayonun da dayanıqlı olmasına əlavə stimullar verir [11]. Bu amillər baxımından, prof. E.A.Quliyevin fikirləri maraq doğurur: Aqrar islahatların məqsədi kənd təsərrüfatı məhsullarının dayanıqlı artımını təmin etmək, istehsalın iqtisadi səmərəliliyini yüksəltmək, cəmiyyətin qida məhsullarına olan tələbatının təmin edilməsi və kənd yerlərində insanların sosial vəziyyətlərinin yaxşılaşdırılması və s. ibarətdir. Aqrar islahatlar vasitəsilə torpaq münasibətlərinin formalaşdırılması və təsərrüfatçılıq formalarının yaradılması təmin olunur [12, s. 62]. Fikrimizcə, bu məsələdə hörmətli professorumuz tamamilə haqlıdır, məhz aqrar sahənin inkişafı nəticəsində çoxukladlı iqtisadiyyata keçidi təmin etmək olar və sahibkarlığın müxtəlif formalarını inkişaf etdirmək üçün əlavə imkanlar yaranar. Digər tərəfdən, aqrar sənaye müəssisələri şəbəkəsinin yaranması hesabına istehsal olunmuş kənd təsərrüfatı məhsullarının səmərəli şəkildə emal edilməsi, ərzaq ehtiyatlarının yaradılması və istehlakçıların tələblərinə uyğun müxtəlif ərzaq məhsullarının istehsalı və bazarlara çıxarılması təmin edilmiş olur. Hazırkı şəraitdə də aqrar sahənin müxtəlif iqtisadi rayonlarda, xüsusilə əvvəldə qeyd etdiyimiz kimi yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inkişaf etdirilməsi nəticəsində həmin iqtisadi rayonların təsərrüfat və maliyyə dövriyyəsinə qaytarılması ilə bərabər, eyni zamanda, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, kənd yerlərinin sosial-iqtisadi dayanıqlılığının gücləndirilməsi məsələləri intensivləşdirilə bilər [13]. Bunun üçün aqrar sahə istehsalının modernləşdirilməsi və ölkəmizdə yeni iqtisadi rayonlaşdırma prinsiplərinə və hədəflərinə uyğun şəkildə tənzimlənməsi vacibdir. Əməkdar Elm Xadimi, prof. B.X.Ataşov qeyd edir ki, inkişaf etməkdə olan ölkələrdə aqrar iqtisadiyyatın böhranlı vəziyyətdən çıxarılması, onun sahələrinin davamlı fəaliyyəti, yerli ərzaq məhsullarının rəqabət qabiliyyətinin təmin edilməsi innovasiya proseslərinin fəallaşmasını zəruri edir. Son illərdə aqrar sahədə sosial-iqtisadi vəziyyətin təhlili onu göstərir ki, burada hələ də maddi və mənəvi cəhətdən köhnəlmiş texnologiyalardan, bitki sortlarından, istehsalın və idarəetmənin qeyri-mükəmməl metodlarından və formalarından istifadə edilir. Tətbiqi fəaliyyətin sınaqdan çıxarılmış mexanizmləri, bazar iqtisadiyyatının müvafiq elmi-texniki informasiya sistemləri, elmi müəssisələrlə tətbiq strukturları arasında sınaqdan çıxarılmış səmərəli qarşılıqlı fəaliyyət mexanizmi həddən artıq zəifdir [14, s. 479]. Əslində, bu problemlərin əksəriyyəti indi də ölkəmizin aqrar sahəsi üçün yetərincə xarakterikdir.

**Nəticə**

Ölkəmizdə aqrar sahənin inkişaf resursları baxımından əvvəllər fəaliyyət göstərmiş və yeni bölgüdə yer almış iqtisadi rayonlarda, həmçinin Qarabağ və Şərqi Zəngəzur rayonlarında kifayət qədər yararlı torpaqlar və aqrar sahənin inkişaf etdirilməsi potensialı vardır. Bir sözlə, yaxın perespektivdə aqrar sahənin inkişaf etdirilməsi üçün işğaldan azad olunmuş ərazilərin potensialından və yeni yaradılmış iqtisadi rayonların imkanlarından istifadə olunması daha yaxşı nəticələrin əldə edilməsinə şərait yaradacaqdır. İqtisadi rayonların inkişaf proseslərində aqrar sahənin aparıcı iqtisadiyyat sahələrindən birinə çevrilməsi və bu istiqamətdə prioritetlərin daha optimal olaraq müəyyənləşdirilməsi konseptual olaraq həll edilməli və bunun üçün iqtisadi, təşkilati, hüquqi, maliyyə mexanizmləri gecikdirilmədən formalaşdırmalıdır. Bu istiqamətlərdə daha yüksək nəticələrin əldə edilməsi üçün bir sıra tədbirlərin görülməsini vacib hesab edirik:

- ilk növbədə, ölkəmizin iqtisadi rayonlarının maksimum resurs potensialının obyektiv olaraq öyrənilməsi, qiymətləndirilməsi və onların əsasında istehsal infrastrukturunun, aqrar sahənin maddi-texniki bazasının istehsal imkanlarının yaradılması məsələləri araşdırılmalı və qiymətləndirilməlidir;

- aqrar sahənin ölkənin müxtəlif iqtisadi rayonlarında intensiv olaraq inkişaf etdirilməsi ilə yanaşı, elmi əsaslara və praktiki nəticələrə söykənmiş əsaslarla inkişafının təmin olunması daha məqsədəuyğundur.
- ölkəmizdə mühüm ərzaq məhsullarının daha reproduktiv sortlarının yetişdirilməsi, bununla bağlı seleksiya tədbirlərinin aparılması, tədqiqatların aparılması və dünyanın bu sahədə qabaqcıl təcrübəsinin dərindən öyrənilməsinə və mənimsənilməsinə ehtiyac vardır.
- Azərbaycanda çox mühüm qida məhsulu olan ərzaqlıq buğdanın və istehsal sahələrinin genişləndirilməsi məhsuldarlığın artırılması problemlərinə kompleks-ardıcıl yanaşmanın təmin olunması vacibdir.
- ölkənin iqtisadi rayonlarında, o cümlədən, işğaldan azad olunmuş Füzuli, Ağdam, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində yüksək keyfiyyətli ərzaq buğdasının istehsal olunması üçün münbit şəraitin olduğu qənaətindəyik;
- yaxın perspektivdə ölkəmizdə emal təyinatlı aqrar müəssisələrin yüksək texnologiyalar, o cümlədən "ağıllı" texnologiyalar əsasında yaradılması və çoxfunksiyalı emal şəbəkəsi müəssisələri kompleksinin istismara verilməsi tələb olunur. Bu halda yetişdirilmiş məhsulun müxtəlif kənd təsərrüfatı məhsullarının, ev təsərrüfatlarında yetişdirilən məhsullarım emalı imkanları artar və bununla da ölkədə ərzaq məhsullarına olan tələbatın ödənilməsində müəyyən davamlı resurslar əldə edilməklə yanaşı, həm də əhalinin gəlirlərinin artması üçün əlavə imkanlar formalaşar.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). / – Bakı: “Nurlar”, 2004, – 160 s.
2. Azərbaycan Respublikası regionlarının sosil-iqtisadi inkişafı (2009-2013-cü ilər) Dövlət Proqramı. /– “Respublika” qəzeti. Bakı, 2009, 16 aprel.
3. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı./ – AR Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bakı: 2014,
4. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Bakı – 2019. –352 s.
5. Алиев, Ш.Т., Меликова, Л.А. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий/ IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков»./ Россия, Москва, 28 марта 2022 г. – с. 277-286.
6. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
7. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / – Bakı şəhəri, 19 aprel 2021-ci il.
8. Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34). – s. 38-44.
9. Джаббарлы, Л. Направления развития сельского хозяйства на освобожденных от оккупации территориях. 2020. Центра аграрных исследований. https://agroeconomics.az/ru/article/100/napravleniya-razvitiya-selskogo-hozyajstva-na-osv/.
10. Nuriyev, Ə.X. ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri (tarix və müasirlik). Bakı: Savad, 2021, – 376 s.
11. “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 16 aprel 2014.
12. Quliyev, E.A. Aqrar iqtisadiyyat. Bakı 2015, “Kooperasiya” nəşriyyatı, 320 s.

13. Алиев, Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура на основе концепций устойчивого и инклюзивного развития // The Scientific Heritage. 2022. №82-4.
14. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı 2017, "Kooperasiya" nəşriyyatı, – 536 s.

***Эльдениз Мазахир оглы Магеррамов***
***Факторы обуславливающие приоритеты развития аграрной сферы в процессах экономического районирования в Азербайджане***
***Резюме***

*Целью исследования – является систематизация и рассмотрение факторов, обуславливающие приоритеты развития аграрной сферы в процессах экономического районирования в Азербайджане в современных условиях. Раскрыта сущность и значимость эффективного деления экономических районов с учётом их спецификации, ресурсных потенциалов и особенностей. Обоснована важность интенсификации развития субъектов экономических районов с учётом их экономической направленности, природных и экономических ресурсов. Рассмотрены процессы формирования экономических районов в Азербайджане и вопросы их совершенствования. После Великой Карабахской Победы снова рассмотрено деление экономических районов в Азербайджане и созданы 2 новые экономические районы - Карабахский и Восточно-Зангезурский экономические районы. Отмечен переход на новый уровень и задачи экономических районов Азербайджана в нынешних условиях. Методология исследования – в основном сформирована из научных экономических методов – синтеза, анализа, сравнения и обобщения. Кроме того, учтены подходы и взгляды различных исследователей по рассмотрению насущных вопросов экономического районирования и особенности в этих процессах. Практическая значимость исследования – отражается в разработке и реализации комплексных мероприятий по реализации приоритетов развития аграрной сферы в процессах экономического районирования в Азербайджане в контексте глобальных проблем по обеспечению продовольственных продуктов. Результаты исследования - заключается в оптимальном определении, влияющих факторов на приоритетность развития аграрной сферы в процессах экономического районирования в Азербайджане. Оригинальность и научная новизна исследования – является комплексное рассмотрение факторов, обуславливающие приоритетность развития аграрной сферы в процессах экономического районирования в Азербайджане в условиях глобальных трансформаций. Анализированы и обоснованы важнейшие вопросы, раскрывающие сущность и особенность экономических районов в Азербайджане с учётом их ресурсных потенциалов. Рассмотрены проблемы, замедляющие развитие экономических районов и предложены адекватные механизмы и решение по их ускорению. Подготовлена группа рекомендаций и предложений по усилению проводимых работ по развитию аграрной сферы в экономических процессах, в процессах развития экономических районов в Азербайджане.*

***Ключевые слова:*** *экономические районы, аграрная сфера, процессы развития экономических районов, проблемы развития экономических районов, проблемы развития аграрной сферы, перспективы развития аграрной сферы.*

***Eldaniz Mazahir Maharramov***
***Factors determining priorities for the development of the agrarian sector in the processes of economic zoning in Azerbaijan***
***Summary***

*Purpose of the research – is to analyze the factors that determine the priorities for the development of the agricultural sector in the processes of economic zoning in Azerbaijan. Therefore, the processes of economic zoning in the country are examined and the essence and importance of development processes at the regional level are presented. Development features of economic regions in Azerbaijan and the main issues of the state's policy in this regard are analyzed and summarized. The justification of the need to renew the division of economic regions in our country is provided. After the Second Karabakh War Victory, the*

*importance of increasing the number of economic regions in the country and the creation of two new economic regions, Karabakh and Eastern Zangezur Economic Regions, in the territories liberated from occupation is explained. The development priorities of the agricultural sector in the economic regions are reviewed and related materials and suggestions are provided. Research methodology- economic methods such as analysis, synthesis, generalization and comparison are mainly used in the article. Moreover, the ideas and approaches of various researchers on the issues related to the economic zoning processes and the development of the agrarian field in these processes are also reviewed. The practical significance- the practical scientific results provided in the article are directly related to the more optimal forecasting and planning of the development processes of economic regions in our country and the study of the factors determining the priorities of the development of the agrarian field in these processes and the taking of adequate measures. Result of the research- are an objective assessment of the modern condition of the economic zoning processes in our country in the present conditions and in a rather complicated period and the necessary measures to be taken regarding the development of the agrarian sector in these processes. Originality and scientific novelty of the research - the research conducted in this direction is almost new, and considering these, it can be noted that there is no serious problem with the originality of the research. On the other hand, the main scientific innovation is the systematization and adequate evaluation of the factors determining the priorities of the development of the agricultural sector in the processes of economic zoning in Azerbaijan in contemporary times. Considering the development characteristics of economic regions, natural and economic resources in our country, the approaches the priorities of the development of the agrarian field are substantiated and the importance of taking related measures are presented. Priorities for the development of the agricultural sector in the economic regions of Azerbaijan, including the newly organized Karabakh and Eastern Zangezur economic regions, are considered in short and long term. Simultaneously proposals and recommendations are made in this regard.*

***Keywords:*** *economic regions, agrarian field, development processes of economic regions, development problems of economic regions, development problems of agrarian field, development perspectives of agrarian field.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 12.08.2022.***
***Çapa qəbul olunub: 19.08.2022.***